# Əməkdar incəsənət xadimi Məhərrəm Bədirzadənin xatirəsi anılıb

Azərbaycan Teatr Xadimləri İttifaqında Əməkdar incəsənət xadimi, "Qızıl dərviş" mükafatı laureatı, tanınmış rejissor Məhərrəm Bədirzadənin 80 illiyi münasibətilə "Onu sevirdilər" adlı xatirə tədbiri keçirilib.



Tədbirdə əvvəlcə rejissorun həyat və sənət yolunun işıqlı səhifələrindən bəhs edən videoçarx nümayiş olunub.

Yığıncaqda çıxış edən Teatr Xadimləri İttifaqının sədri, Xalq artisti Hacı İsmayılov M.Bədirzadənin təkcə böyük rejissor deyil, həm də dərin insanlıq keyfiyyətlərinə malik şəxsiyyət olduğunu deyib: "Məhərrəm müəllim çox qayğıkeş insan idi. Onunla dostluq etmək bir ömürlük səadətdir. Bizim dostluğumuz 70 illik bir tarixdir".

Əməkdar incəsənət xadimi Məryəm Əlizadə rejissorun pedaqoji fəaliyyətindən danışaraq onun tələbələrə necə qayğı ilə yanaşdığını vurğulayıb: "Biz uzun illər Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində çiyin-çiyinə çalışmışıq. Məhərrəm müəllim təkcə rejissor deyildi, həm də gözəl bir pedaqoq idi. O, hər bir aktyorun ruhunu hiss edirdi, onların daxili potensialını açmağa çalışırdı. Hər səhnədə onun imzasını oxumaq mümkün idi".

Əməkdar incəsənət xadimi, professor İlham Rəhimli bildirib ki, M.Bədirzadənin sənətə olan sevgisi dərin və hər şeydən üstün idi. "Məhərrəm Bədirzadə Azərbaycan teatrı üçün yanan bir çıraq idi və onun işığı heç zaman sönməyəcək. Bu gün də teatr səhnəsində onun nəfəsi hiss olunur", - deyə professor əlavə edib.

Xalq artisti Nəsibə Zeynalovanın adını daşıyan nəvəsi Nəsibə Əsgərova diqqətə çatdırıb ki, nənəsinin səhhətinin ağır zamanlarında onu bədbinliyə qapılmağa qoymayan məhz Məhərrəm Bədirzadə olub. "Yaşlı insan üçün sadəcə diqqət və sevgi çox önəmlidir. Məhərrəm müəllim nənəmin bu çətin dövründə sanki onun həyatına bir işıq gətirmişdi. Deyərdim ki, bu diqqət və qayğı Nəsibə xanımı daha da güclü edirdi."

Tədbirdə Xalq artistləri İlham Namiq Kamal, Mərahim Fərzəlibəyov, Yasin Qarayev, Əməkdar artist Azad Şükürov və digər sənət adamları Məhərrəm Bədirzadə ilə bağlı xatirələrini bölüşərək onun ölməz irsinə bir daha ehtiramlarını ifadə ediblər.

Azərbaycan.-2025.- 15 yanvar (№ 8).- S.11.